**2026-cı ilin aprel ayı ərzində müayinə və texniki xidmət məlumatları üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin Müayinə və texniki xidmətin monitorinqi sektorunun əməkdaşları tərəfindən 2026-cı ilin 6 aprel tarixindən 30 aprel tarixinədək olan müddətdə Reyestrə daxil edilmiş müayinə və texniki xidmət məlumatlarının toplanılması, qiymətləndirilməsi, təhlili və yoxlanılması üsulu ilə monitorinq keçirilmişdir.

Monitorinq nəticəsində qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında və qaz xətlərində müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi ilə müəyyən edilmiş qaydada aparılmadığı, eyni zamanda texniki xidmətin Qanunun 19-cu maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilmədiyi müəyyən olunmuşdur.

Aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.